# Milli ənənələri yaşadan möhtəşəm tarixi binaların memarı

**SSRİ Memarlıq Akademiyasının həqiqi üzvü, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki, SSR Xalq memarı, Azərbaycan SSR Əməkdar incəsənət xadimi, SSRİ və Azərbaycan dövlət mükafatı laureatı, memarlıq doktoru, Böyük Britaniya və İrlandiya Kral Asiya Cəmiyyətinin fəxri üzvü, Azərbaycan SSR Ali Sovetinin deputatı, professor Mikayıl Ələsgər oğlu Hüseynov. Bütün bu ad, titul və mükafatları qazanmaq onun gərgin və fasiləsiz fəaliyyətinin və peşəsinə olan məhəbbətinin nəticəsidir.**

1905-ci il aprelin 19-da Bakı şəhərində dünyaya gələn Mikayıl Hüseynov 1911-ci ildə Bakı realnı məktəbinə daxil olub. 1921-ci ildə II dərəcəli 5-ci məktəbdə təhsilini bitirib. Bir il sonra M.Əzizbəyov adına Azərbaycan Politexnik İnstitutuna (Texniki Universitet) qəbul olub və mühəndis-inşaat fakültəsində mühəndis-memar ixtisası üzrə təhsil alıb. Seçdiyi peşənin sirlərinə dərindən bələd olan memar "Azərdövlətmemarlayihə"də 1-ci memarlıq emalatxanasının rəhbəri, 1960-1990 illərdə məsləhətçi işləyib. 1947-1992-ci illərdə isə Azərbaycan Memarlıq İttifaqının sədri, 1945-ci ildə Azərbaycan SSR EA-nın fizika-texniki elmlər və neft bölməsi üzrə həqiqi üzvü olub. Mikayıl Hüseynov ilk memarlıq və nəzəri əsərlərini 1946-cı ilədək həmkarı Sadıq Dadaşovla birgə yaradıb. 1948-1988-ci illərdə Azərbaycan SSR EA Memarlıq və İncəsənət İnstitutunun direktoru işləyib. 1982-ci ildə Bakı şəhərinin fəxri vətəndaşı seçilib.

Hələ tələbəlik illərindən mədəniyyət abidələrinə maraq göstərən memar Şirvanşahlar sarayının dəqiq ölçülərini aparıb və kompleksin müasir şəklini yaradıb. Daha sonra isə Nizami Gəncəvinin abidəsinin layihə müsabiqəsində iştirak edərək mükafata layiq görülüb. Memarın layihələri əsasında Bakı, Gəncə, Naxçıvan, Şəki şəhərlərində, eləcə də ölkəmizin Moskva və Düşənbədə mədəni-məişət binaları tikilib. Onun layihələri əsasən Şərq və Qərb memarlıq məktəbinin sintezindən yaranıb. Paytaxtın görkəminə xüsusi gözəllik qatan "Alimlər evi", Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyası, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Nizami Kino Mərkəzi, Azərbaycan Politexnik İnstitutu, "Bakı Soveti" işçiləri üçün yaşayış binası və onlarla memarlıq nümunələri məhz onun layihələri əsasında inşa olunub. Mikayıl Hüseynovun çoxşaxəli memarlıq fəaliyyəti Azərbaycan arxitekturasının təkmilləşməsi və yüksəlişi mərhələsi ilə birbaşa bağlıdır. Uzun müddət baxımsızlıq üzündən bərbad hala düşən abidələrin bərpası kimi çətin və şərəfli işin öhdəsindən gəlmək məhz onun qismətinə düşüb.

Mikayıl Hüseynovun simmetrik kompozisiya şəklində həll edilmiş layihəsinə əsasən Hökumət Evinin yanında 10 mərtəbəli 2-si yaşayış olmaqla, bir neçə 16 mərtəbəli bina, o vaxtkı Lenin meydanının qərb tərəfində 16 mərtəbəli "Azərbaycan", şərq hissəsində isə "Abşeron" mehmanxanaları tikilib. Memarın yaradıcılıq fəaliyyətində önəmli yerlərdən birini 1960-1980-ci illərdə Bakıda Leninin adını daşıyan meydan (indiki Azadlıq) ansamblının tikintisi tutur. Onun uğurla həyata keçirdiyi layihələri saymaqla bitmir. 1930-1940-cı illər gənc memarın yaradıcılığının ən qaynar dövrü olub. 1934-cü ildə Bakıda Sovetlər Sarayı - Azərbaycan SSR-in Hökumət evi üçün elan olunmuş müsabiqə Azərbaycan memarlıq tarixində böyük hadisə idi. Artıq gənc memarlar - M.Hüseynov və S.Dadaşov SSRİ Dövlət mükafatı laureatları sırasında idilər. Bu iki memarın birgə fəaliyyəti Azərbaycan memarlığına öz töhfəsini verib.

Mikayıl Hüseynov sənətə gəlişi, əldə etdiyi uğurlar barədə belə deyib: "Bu sənəti hələ uşaqkən özüm seçmişəm. Kiçik yaşlarımdan kibrit dənələri, plastilin və ağac qırıntılarından müxtəlif "konstruksiyalı binalar" tikərdim. İndiki kimi yadımdadır, 10 yaşım tamam olanda qohumlarım mənə Leonardo da Vinçi haqqında kitab və İtaliya şəhərlərinin mənzərələrini əks etdirən filmoskop bağışladılar. Uzun illər o kitab və filmoskopdan ayrıla bilmədim və o hədiyyələr də mənim memarlıq sənətinə sevgimi daha da qüvvətləndirdi".



İkinci Dünya müharibəsi zamanı Mikayıl Hüseynovun yaradıcılığında yeni dövr başlayıb. Ona Bakının böyük xalq təsərrüfatı və müdafiə əhəmiyyətli obyektlərində memarlıq-maskalama işləri üzrə məsuliyyətli vəzifə tapşırılıb. Daha qızğın iş prosesi isə müharibədən sonrakı dövrdə olub. Ölkədəki səmərəli inşaat işləri Azərbaycan memarları qarşısında kütləvi yaşayış evlərinin sənayeləşdirilməsi və tipləşdirilməsi problemini qoyub. Bu çətin prosesə Mikayıl Hüseynov da öz töhfəsini verib. 1964-cü ildə Azərbaycan Dövlət Konservatoriyasının genişləndirilməsi, 1967-ci ildə istifadəyə verilən Bakı metropoliteninin "Nərimanov" stansiyası, 1977-ci ildə "Moskva" mehmanxanası, Azərbaycan Elmlər Akademiyasının Mərkəzi Kitabxanası onun layihələri əsasında inşa edilib. Mikayıl Hüseynov iki yüz əlli layihə hazırlayıb ki, onlardan çoxu reallaşıb.



Gənc yaşlarından şöhrətin zirvəsinə yüksələn memarın fəaliyyəti, reallaşdırdığı layihələr yalnız yaşayış binalarının və iaşə obyektlərinin tikintisi ilə məhdudlaşmayıb. 1957-1959-cu illərdə görkəmli dövlət xadimləri, yazıçı və şairlərin abidələrini hazırlayıb. Moskvada və Naxçıvanda V.İ.Leninin, Bakıda və Qazaxda Səməd Vurğunun, Bakıda Mehdi Hüseynzadənin abidələrini və "Azad qadın" heykəlini yaradıb. Hər zaman işlərində milli, qədim ənənələrə sadiq olan memar deyirdi: "Milli memarlıq ilk növbədə milli formadır, ənənədir". Milli ənənələrə sadiqliyinə görə də SSRİ Memarlar İttifaqı tərəfindən qınaq obyektinə çevrilən Mikayıl Hüseynov tənqidlərə əhəmiyyət vermir, yaratdığı əsərlərdə düşüncələrini geniş şəkildə əks edirdi.



İngiltərə kraliçası II Yelizavetanın himayəsi altında olan "Böyük Britaniya Asiya Cəmiyyəti" tərəfindən 1985-ci ildə təşkil edilmiş "Bakının memarlığı" sərgisində akademik M.Hüseynovun əsərləri nümayiş etdirilib. Sərgiyə keçirilən baxış və müzakirələrdən sonra M.Hüseynov Böyük Britaniya və İrlandiya Kral Asiya İcmasının fəxri üzvü seçilib. 1992-ci ildə isə Beynəlxalq Memarlar Akademiyasına fəxri üzv seçilən Mikayıl Hüseynova Akademiyanın prezidenti Y.H.Rozanov təbrik məktubunda yazıb: "Mən əminəm ki, sizin istedadınız və təcrübəniz akademiyaya böyük xeyir gətirəcək və siz dünya memarlığının görkəmli nümayəndəsi kimi BMA-nın qarşısında duran xeyirxah məqsədlərin həyata keçməsi üçün dəyərli işlər görəcəksiniz".

Dünyaşöhrətli memar Mikayıl Hüseynov 1992-ci il oktyabrın 7-də 87 yaşında vəfat edib.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**

Respublika .- 2025.- 19 aprel (№ 77).- S.14.